# «Şəbi-Hicran» diski 35 manata satıldı

## Sevda Ələkbərzadə iki illik əziyyətinin bəhrəsini gördü

Sevda Ələkbərzadə, nəhayət ki, çoxdan gözlənilən «Şəbi-Hicran» layihəsini təqdim etdi. İki ildən çox üzərində çalışdığı albomunu musiqisevərlərin ixtiyarına buraxdı. «Hyyat Recensy» otelində təşkil etdiyi təqdimat mərasimində daha kimlər yox idi ki? Tanınmış müğənnilər, aktyorlar, modelyerlər, ziyalılar, incəsənət xadimləri, Rusiya və ABŞ-ın ölkəmizdəki səfirləri və təbii ki, media mənsubları.

Öncə «Şəbi-Hicran» layihəsi barədə tədbirin aparıcısı Kamilə Babayeva məlumat verdi. Dedi ki, albomda 20-dən çox musiqiçinin çalışdığı 12 mahnıdan ibarət CD və «Şəbi-Hicran» konsertinin DVD versiyası yer alıb. Diskdə bəstəkarlardan Fikrət Əmirov, Cahangir Cahangirov, Tələt Eyyubovun bəstələri ilə yanaşı, xalq mahnıları yeni oranjemanda təqdim olunur. CD-yə daxil olan mahnılar M.Maqomayev adına Dövlət Filarmoniyasının studiyasında canlı yazılıb. Azərbaycanda ilk dəfə həm görünüş, həm səslənmə, həm də keyfiyyət baxımından fərqlənən, xaricdə hazırlanmış bu diskin dizaynı «Flexible Solutions» şirkətinə məxsusdur. Hər kəsin intizarla gözlədiyi proyektə daxil olan kitabçada isə tənqidçi Cahangir Səlimxanov Sevda Ələkbərzadənin musiqi dünyasından söz açır. Yazı 5 dilə (azərbaycan, rus, ingilis, fransız, alman) tərcümə edilib. 3000 tirajla buraxılan disk təkcə Azərbaycanda deyil, Avropa ölkələrində də satışa çıxarılacaq. Yeri gəlmişkən, konfrans zalının foyesində «Şəbi-Hicran» albomu 35 manata satılırdı.

Beləliklə, söz verildi Sevda Ələkbərzadəyə. Fərqli geyimdə səhnəyə çıxan müğənni başını çalma ilə örtmüşdü. Layihənin hazırlanmasında ona dəstək olan Nazim Abdullayevə təşəkkür edən Sevda daha sonra sözünü musiqi ilə dedi. Diskə daxil olan mahnıları bir-bir ifa edib, o ki var, alqış qazandı. Tədbirə təşrif buyuran qonaqların ifadan razı qaldıqları hiss olunurdu. Konsertdən sonra jurnalistlərin suallarını cavablandıran Sevda Ələkbərzadə «Şəbi-Hicran» layihəsinin, onun gərgin əməyinin bəhrəsi olduğunu dilə gətirdi: «Çox əziyyət çəkdim bu albom üzərində. İnanın ki, iki ildir bütün diqqətimi «Şəbi-Hicran»a yönəltmişəm. Fikrimcə, çox uğurlu da alınıb. Bilirsiz, müğənni öz üzərində daima işləməlidir. İllər boyu eyni mahnını eyni cür ifa etmək olmaz axı. İrəliləmək, xalq mahnılarını yeni oranjemanda təqdim etmək lazımdır».